**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, “Kitabxana işi haqqında”, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” və “Poçt haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 167 (Cild I) 19-cu maddəsinin birinci hissəsinin 6-cı bəndində “korlar” sözü “görmə qabiliyyəti tam məhdud olan şəxslər” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 158 (Cild I) 6-cı maddəsinin ikinci hissəsinin dördüncü abzasında “korlar” sözü “görmə qabiliyyəti tam məhdud olan şəxslər” sözləri ilə əvəz edilsin.

**Maddə 3.** “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 442 (Cild I); 2024, № 6 (I kitab), maddə 643) 7-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 7.0.1-ci maddədə “məhdud olanlar, o cümlədən zəif eşidənlər” sözləri “və ya qismən məhdud olanlar” sözləri ilə əvəz edilsin;

3.2. 7.0.2-ci maddədə “məhdud olanlar, o cümlədən zəif görənlər” sözləri “və ya qismən məhdud olanlar” sözləri ilə əvəz edilsin.

**Maddə 4.** “Poçt haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 604 (Cild I); 2024, № 2, maddə 138) 1.0.11-ci maddəsində “korlar” sözü “görmə qabiliyyəti tam məhdud olan şəxslər” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 oktyabr 2024-cü il